# Nurlu ömrün şöləsi

*Mən yer üzündə müəllimdən yüksək ad tanımıram.*

*Heydər Əliyev*

**Deyirlər, həqiqi müəllim bərəkətli torpağa bənzəyir. Müəllim də torpaq kimi bütün nemətlərini insanlara səxavətlə bəxş edib, müqəddəsləşir.**

Məhz belə insanlar gözlərinin nuru ilə yeniyetmə və gənclərin ömür yolunu işıqlandırır, onlarda əqidə bütövlüyü yaradır, şərəfli müəllim əməyi ilə yetirmələrinin qəlblərində özlərinə əzəmətli bir abidə ucaldırlar.

Böyük pedaqoq V.A. Suxomlinski "Kimi yaxşı müəllim adlandırmaq olar?" sualına cavab verərək yazırdı: "Müəlim hər şeydən əvvəl elə bir adamdır ki, uşaqları sevir, onlarla ünsiyyətdə öz xoşbəxtliyini tapır, hər bir uşağın gələcəkdə yaxşı adam olacağına inanır, onlarla dostluq etməyi bacarır, uşaqların sevincini də, qəmini də bölüşdürə bilir, uşağın qəlbinə girə bilir və özünün də nə vaxtsa uşaq olduğunu qətiyyən unutmur."

Şərəfli müəllim peşəsinə qəlbən bağlanan İsmayılova Əminə Fətəli qızı məhz belələrindəndir. O, müəllim haqqında hikmətli kəlamda göstərilən bütün cəhətəri özündə birləşdirərək, ömrünün 38 ildən artıq bir dövrünü yeniyetmə və gənclərin təlim-tərbiyəsi işinə həsr etmişdir.

Əminə İsmayılova 1954-cü ilin yanvar ayının 2-də Şabran rayonunun bağlı-bağçalı qədim Gəndov kəndində dünyaya göz açıb. 1970-ci ildə Gəndov kənd orta məktəbinin X sinfini bitirib və indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə qəbul olub. 1975-ci ildə həmin universiteti müvəffəqiyyətlə bitirib.

Təyinatını Gəndov kənd tam orta məktəbinə alan Əminə müəllimə məktəbin qonaqpərvər, qayğıkeş kollektivi tərəfindən səmimi qarşılandı. Məktəbin pedaqoji kollektivi tərkib etibarı ilə yüksək elmi-pedaqoji potensiala malik bir kollektiv idi. Bu kollektivin xarakterik xüsusiyyətlərindən biri o idi ki, enerjili gənc müəllimlərdən istifadə edərək intensiv sinifdənxaric və məktəbdənkənar tədbirlər - elmi dərnəklər, bilik yarışları, müəllimlər üçün elmi-metodik seminarlar və s. keçirirdi. Bu sahədə Əminə müəllimə ön sırada gedənlərdən biri oldu. Belə intensiv aparılan elmi-metodik tədbirlərin nəticəsində pedaqoji kollektivin və xüsusən şagirdlərin arasında canlanma, elmə, biliyə böyük maraq yarandı. Əminə



müəllimə istedadlı şagirdlərin müəyyənləşdirilməsində də xüsusi təşəbbüskarlıq göstərdi.

Gəndov kənd orta məktəbində işlədiyi müddətdə kollektivdə, valideynlər arasında böyük hörmət qazanan Əminə müəllimə həmkarlarına da həmişə böyük qayğı ilə yanaşmış, işlədiyi məktəbin ictimai işlərində fəal iştirak etmişdir. Bütün bunlara görə işlədiyi müddətdə məktəb rəhbərliyini, təhsil şöbəsinin, icra hakimiyyətinin fəxri fərmanlarına, müxtəlif qiymətli hədiyyələrinə layiq görülmüşdür.

Müəllimi yaşadan, onu daha ürəklə çalışmağa sövq edən bir amil də yetirmələridir. Əminə müəllimin də yaxşı şagirdləri, adlı-sanlı yetirmələri yüzlərcədir və yeri gələndə müəllimləri haqqında yalnız sevgi ilə, hörmətlə danışırlar. Şabran RTŞ-nin müdiri Emin Mövsümov:

- Mən Əminə müəllimənin şagirdi olduğum üçün fəxr edirəm. O, həm özünə, həm də bizə qarşı çox tələbkar idi. Ona bəzən problemlərimizi, sirlərimizi də açırdıq.

Şabran Rayon Statistika idarəsinin müdir müavini Mehriban Fətəliyevanın dediklərindən:

- Əminə müəllimə öz ixtisasını bütün incəliklərinə qədər bilən və riyaziyyatı tələblərə uyğun səviyyədə uşaqlara çatdıran peşəkar bir müəllimədir. O işlədiyi müddətdə şagird və müəllim kollektivinin dərin hörmətini qazanıb.

Əminə müəllimə 2018-ci ilin sentyabrından həyat və fəaliyyətini ADPU-nin Quba filialının Təbiət fənləri və onun tədrisi metodikası " kafedrası ilə bağlayır. O işlədiyi qısa vaxt ərzində öz pedaqoji ustalığı, təşkilatçılıq qabiliyyəti ilə kafedrada işləri tələb olunan səviyyədə təşkil etməklə, yüzlərlə savadlı pedaqoq kadrların hazırlanmasında böyük fəallıq göstərir. Elmi axtarışlarını davam etdirərək hazırda orta məktəbin riyaziyyat kursunda tam ədədlərin bölünmə nəzəriyyəsinin bir sıra məsələlərinin elmi-nöqteyi nəzərdən araşdırılması ilə məşğuldur. Ağ saçlar müdrikliyin, ağbirçəkliyin əlamətidir. Müdriklik çağında insan mənəvi zənginliyi, işgüzarlığı, qayğıkeşliyi və s. keyfiyyətləri ilə ictimaiyyətin hörmətini qazanır. Əminə müəllimə belələrindəndir. El - oba onu hörmət və ehtiramla qarşılayır. O, sadə həyat tərzi keçirmiş, zəhmətkeş bir insandır, onu həmişə yoldaşlıqda etibarlı görmüşük. O burada işlədiyi müddətdə öz işinin öhdəsindən bacarıqla gəlmiş və kollektivdə özünə hörmət və rəğbət qazana bilmişdir.

Hər gün ADPU-nun Quba filialına bir müəllim tələsir. Həmişə qayğılı və narahat görünən bu insan tələbələrinə elmin sirlərini açmağa çalışır. Onun hər dərsi bir xatirəyə dönür, hər söhbəti bir işığa çevrilir. Çünki yorulmaq bilmədən öyrədir, öyrənir, bu sahədə axtarışlarını davam etdirir. Son olaraq deyirik ki, hörmətli Əminə xanım, "Təbiət zamanla verib qol-qola, yaşatsın qoynunda yüz illər sizi!".

**Əminə xanım İsmayılova 45 ildir ki, ömrünü gənc nəslin təlim - tərbiyəsi yolunda şam kimi əridir. Bu günlərdə onun 66 yaşı tamam olmuşdur. Ünvanına çoxlu təbriklər gəlmişdir. Biz də Əminə xanımı təbrik edənlərə qoşulur, ad günün mübarək olsun deyir və ona möhkəm cansağlığı diləyirik.**

**Güləddin Həmzəyev,**
**Şıxəmməd Seyidməmmədov,**
**ADPU-nun Quba filialının müəllimləri**